ISSN 2617-8052

ELMİ XƏBƏRLƏR

Riyaziyyat və Təbiət Elmləri seriyası



1 / 2021

ELMİ XƏBƏRLƏR

RİYAZİYYAT VƏ TƏBİƏT ELMLƏRİ

№ 1, 2021

 İSSN 2617-8052

E D I T O R I A L   B O A R D

MÜNDƏRİCAT

1. **Ağayev Ziyafət**.. 5
   Talış dağlarının transsərhəd çayları və onların müasir problemləri
2. **Qulamova Aynurə**..
   Naxçıvan Muxtar Respublikası florasında yayılan Sorbus L. cinsinə daxil olan növlərin təhlili və biomorfoloji xüsusiyyətləri 12
3. **Salmanova Natiqə**.. 21
   Zirinc (Berberis L.) cinsinə daxil olan növlərin əsas zərərvericiləri, xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri
4. **Мерве Зенгин, Натиг Ибрагимов, Габил Ягуб**...................................... 27
   Существование и единственность решения задачи оптимального управления с граничным функционалом для нелинейного стационарного уравнения квазиоптики со специальным градиентным слагаемым

TALIŞ DAĞLARININ TRANSSƏRHƏD ÇAYLARI VƏ ONLARIN MÜASİR PROBLEMLƏRİ

Ziyafət Ağayev

Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: kreativagayev@gmail.com

Xülasə: Məqalədə Azərbaycanın cənub-şərq hissəsində yerləşən Talış dağlarının Transsərhəd çaylarının qidalanma mənbələri, ortaillik, çoxillik, maksimal su sərfi kəmiyyəti və onların mövsümlər üzrə paylanması, idarə olunması, çaylarda Qlobal iqlim dəyişmələrinin regional təzahürləri və antropogen amillərin qarşılıqlı təsiri nəticəsində yaranan ekoloji problemlər və onların həlli yolları təhlil edilmişdir.

Açar sözlər: axım kəmiyyəti, axım rejimi, su sərfi, hidroloji müşahidələr, transsərhəd çaylar, su problemi

Giriş

Hər hansı bir ərazinin su ehtiyatları dedikdə, həmin ərazinin səth və yeraltı sularının cəmi nəzərdə tutulur. Azərbaycan Respublikasının ərazisinin böyük bir hissəsi arid zonasında yerləşdiyindən onun su ehtiyyatları kifayət qədər deyildir. Belə ki, Azərbaycan Respublikasının ümümi su ehtiyatları 30,9 km^3 hesablanmışdır ki, bunun də cəmi 10,3 km^3–i respublikamızın ərazisində, qalan 20,6 km^3 – i ölkəmizdən kənarda formalaşaraq transsərhəd çaylar vasitəsilə ölkəmizin ərazisinə daxil olurlar [5]. Ölkə ərazisində transsərhəd sular da nəzərə alınmaqla yeraltı və yerüstü suların adambaşına düşən gündəlik miqdarı 10 min litrə yaxındır [3].

Lakin nəzərə almaq lazımdır ki, respublikamızın ərazisində su ehtiyatları qeyri-bərabər paylanmışdır və Talış dağlarının daxil olduğu Lənkəran təbii vilayəti su ehtiyatları ilə nisbətən yaxşı təmin olunmuşdur. Azərbaycan Respublikasının azsulu sahələri Qobustan, Naxçıvan MR və Kür-Araz ovalığıdır. Talış sahəsində axım modulu şimaldan cənuba və qərbdən şərqə doğru artır. Axımın maksimum kəmiyyəti (25/lsan, km^2-dən çox) ərazinin mərkəzi hissəsində Təngərud və Astara çayları hövzələrində minimal kəmiyyəti isə (0,5-0,8/lsan. km^2) ərazinin Viləş çayından şimaldakı hissəsində, həmçinin Lənkəran və Viləş çaylarının mənbələrində müşahidə olunur. Qeyd etmək lazımdır ki, təbii vilayətdə orta illik axımın kəskin azalması müşahidə olunur.

Lənkəran təbii vilayətinin su ehtiyatları ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif dövrlərdə hesablanmışdır. Bu istiqamətdə son tədqiqatlar Z.B.Ağayev tərəfindən yerinə yetirilmişdir. Çay hövzələrinin sahələrini nəzərə almaqla su ehtiyatların hesablanması metodundan istifadə etməklə Z.B.Ağayev müəyyən etmişdir ki, təbii vilayətin ümümi su ehtiyatları 1,64 km^3–dir [1].

Təbii rayonda su ehtiyyatlarının formalaşmasında şübhəsiz ki, Talış dağlarından axan və öz statusuna görə ərazinin başqa çaylarından fərqlənən Astaraçay və Bolqarçay transsərhəd çayları da mühüm rol oynayır. Hər iki çay öz mənbələrini respublikamızın ərazisindən kənarda – İran İslam Respublikasının ərazisindən götürür. Astaraçay bütün uzunluq boyu Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı dövlət sərhədi boyu axaraq öz suyunu Xəzər dənizinə çatdırır. Bolqarçay isə İran İslam Respublikası ərazisindən başlanğıcını götürərərək müəyyən bir məsafədə hər iki dövlət sərhədi rolunu oynayır, sonra isə respublikamızın Biləsuvar ərazisinə daxil olaraq öz suyunu Xəzərin sahilində Mahmudçala bataqlığına çatdırır [8].

Astaraçay Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədində başlanğıcını Talış silsiləsindəki hündürlüyü 1817 m-ə çatan Şindanqalası dağından götürür və iki dövlət sərhədi boyu axaraq Xəzər dənizinə tökülür. Çay öz adını "ast" və "ara" sözlərinin birləşməsindən almışdır, "dərədə bulaq, çökək yerdən çıxan su" – mənasında ifadə olunur. Bu çayın uzunluğu 36 km, hövzəsinin ümümi sahəsi isə 242 km^2 –dir ki, bunun da 124 km^2-i Azərbaycan Respublikasının ərazisində yerləşmişdir. Astaraçayın 9 əsas qolu var: İstisuçay, Ağçay, Mişinçay və s. Astaraçayı hövzəsinin orta hündürlüyü 470 m, çay şəbəkəsinin orta sıxlığı 1,50 km/km^2-dir [4]. Astaraçayın illik axımının orta illik axımının 22%-ni yeraltı suları, 8%-ni isə qar suları təşkil edir. Qalan 80%-ni yağış suları təşkil edir. Çayda gursulu dövr yaz dövrünə təsadüf edir. Güclü daşqınlar da bu dövrdə baş verir.

Ortasulu illərdə Astaraçayın orta illik su sərfi 6,92 $м^3/с$, 50% təminatlı orta illik axım həcmi 213,5 mln.m^3 , 99% təminatlı isə 112,3mln.m^3 -dir. Çayda illik axımın 21,1%-i dekabr-fevral aylarında, 33.4%-i mart-iyun aylarında, 5,35-i iyul-avqust aylarında və 40,2%-i sentyabr-noyabr aylarında keçir [5].

Astaraçay üzərində hidroloji müşahidə məntəqəsi yoxdur. Yalnız onun əsas qollarından biri olan İstisuçay üzərində 1941-ci ildən Alaşa məntəqəsi fəaliyyət göstərir [2].

İstisuçayın Alaşa məntəqəsinə qədər sutoplayıcının sahəsi 60,0 km^2 –dir və bu, Astaraçayın sutoplayıcısının 25%-ni təşkil edir. İstisuçayın çoxillik orta su sərfi Astaraçayla müqayisədə təxminən 5 dəfə az olub 1,43 m^3/s-ə bərabərdir.

Astaraçayın özü üzərində müşahidələrin aparılmadığını nəzərə alaraq, onun axım xarakteristikalarının çoxillik dövr ərzində dinamikası haqqında müəyyən təsəvvür əldə etmək məqsədilə, İstisuçay-Alaşa məntəqəsi üçün orta illik və maksimal su sərfləri sıralarının trend analizi yerinə yetirilmişdir (şəkil 1,2).

Göründüyü kimi maksimal su sərfləri sırasında trend yoxdur, lakin orta illik su sərfləri sırasında isə mənfi trend səciyyəvidir. Həm də bu trend 5%-li əhəmiyyətlilik dərəcəsində statistik baxımdan əhəmiyyətlidir.



Şəkil 1. İstisuçay-Alaşa məntəqəsi üçün ortaillik su sərflərinin trendi



Şəkil 2. İstisuçay-Alaşa məntəqəsi üçün maksimal su sərflərin trendi

Bolqarçay İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında yerləşmişdir. Bu çay haqqında elmi ədəbiyyatda məlumat çox azdır. Çayın və onun hövzəsinin morfometrik göstəriciləri, axımı və su ehtiyyatları haqqında informasiya yalnız S.H.Rüstəmov və R.M.Qaşqayın elmi əsərlərində verilmişdir [5,6]. Hövzəsinin ümumi sahəsi 2170 km^2 , ümumi uzunluğu isə 168 km-ə çatan Bolqarçayın İran İslam Respublikası ərazisində uzunluğu 135 km, Azərbaycanda isə uzunluğu 33 km-ə çatır. Bolqarçayın Azərbaycan hissəsində heç bir hidroloji müşahidə məntəqəsi yoxdur. Belə bir məntəqə 1938-ci ildə Biləsuvar rayon mərkəzi yaxınlığında təşkil olunmuş, lakin bir il fəaliyyət göstərməmiş bağlanmışdır.

Çayın illik axımının 90-95%-i yağış sularından formalaşır. Orta sulu illərdə çayın orta illik su sərfi 2,06 m^3/s, 50% təminatlı orta illik axım həcmi 58,3 mln.m^3 , 99% təminatlı sıfırdır. Çayın axımı il ərzində kəskin qeyri-bərabər paylanır: dekabr-fevral aylarında illik axımın 37,9%-i, mart-iyun aylarında 42,6%-i, iyul-avqust aylarında 2,4%-i, sentyabr-noyabr aylarında 17,1%-i keçir [5].

Transsərhəd çayların sularından istifadə etmək çox zaman siyasi səbəblərdən asılı olduğundan çətinləşir. Bütün quru sahəsinin 45%-ni təşkil edən transsərhəd çayların sayı 263-ə çatır. Dünyanın siyasi xəritəsində olan ölkələrin 25%-i, dünya əhalisinin isə 40%-i bütünlüklə transsərhəd çay hövzəsində yerləşir [3].

Transsərhəd çay hövzələrində yerləşən ölkələr bir qayda olaraq həmin çayların suyundan istifadə zamanı müxtəlif problemlərlə üzləşirlər. Bu problemlər ilk növbədə hüquqi və siyasi problemlərdir. Belə ki, transsərhəd çay hövzələrində yerləşən ölkənin coğrafi mövqeyi onun su siyasətinə çox ciddi təsir göstərir. Çox zaman transsərhəd çay hövzəsinin yuxarı və aşağı hissələrində yerləşən ölkələrin maraq dairələri bir-birindən kəskin fərqlənərək toqquşur. Belə vəziyyətdə hövzənin yuxarı hissəsində yerləşən ölkə həmin çayın suyundan daha sərbəst istifadə etdiyindən onun mühafizəsinə bir oqədər də maraqlı olmadığından bir-çox problemlərə yol açılır. Həmin dövlətlər ərazisindən atılan çirkab suları qəbul edən transsərhəd çaylar sanki sanitar-təmizlik funksiyasını yerinə yetirərək ekoloji təcavüzə məruz qalır. Nəticədə onların sularının keyfiyyəti sanitar normaların tələblərinə cavab verməyən vəziyyətdə Azərbaycan ərazisinə daxil olurlar.

Transsərhəd sulardan istifadədə ikitərəfli, regional və çoxtərəfli əməkdaşlığın vacibliyi beynəlxalq su axınları haqqında bir sıra müqavilə, protokol və konvensiyalarda öz əksini tapmasına baxmayaraq bir sıra ölkələr ya ona qoşulmaq istəmir, ya da tam riayət etmirlər.

Müasir geosiyasi şəraitdə Astaraçay və Bolqarçay hövzələri üçün çox ciddi surətdə əsaslandırılmış su strategiyası hazırlanmalıdır. Həmin çayların axımının qonşu ölkələr arasında bölünməsi üzrə dövlətlərarası müqavilə bağlanmalı və bu zaman ölkəmizin coğrafi mövqeyi, təbii və sosial-iqtisadi xüsusiyyətləri maksimum dərəcədə nəzərə alınmalıdır. Bu prinsipin əsası həmin çayların su ehtiyyatlarından bərabər miqdarda götürülməsi və su ehtiyyatlarının mühafizəsi ola bilər. Belə çayların su ehtiyyatlarından istifadə edilməsi zamanı xüsusi yanaşma tələb etdiyindən adları qeyd olunan çayların hövzələrinin su ehtiyyatlarının qeydiyyatı və istifadəsi hər iki ölkədə eyni qaydada yerinə yetirilməlidir.

Məsələn, Avropa ittifaqı ölkələrində su ehtiyyatlarının inteqrasiyalı idarə olunması haqqında qəbul edilmiş qərarında bu problemə yanaşmanın iki vacib xüsüsiyyəti vardır [7].

1.Hövzənin bütün sularının ehtiyatının (yeraltı,səth) istifadəsinin qeydiyyatı aparılır, su itkiləri minimuma endirilir və sudan daha səmərəli istifadə üçün iqtisadi mexanizmlərin yaradılması təmin olunur.

2.Hövzənin su ehtiyyatlarının idarə olunması, hövzə ekosisteminin digər vacib komponentlərinin (torpaq, bitki örtüyü və s.)idarə olunması ilə əlaqələndirilir.

Qlobal iqlim dəyişmələrinin regional təzahürləri və antropogen amillərin qarşılıqlı təsiri nəticəsində Bolqarçayın suyu azalaraq yayda quruyur.

Bolqarçay üzərində tikilmiş və 1965-ci ildən istismar olunan Bolqarçay su anbarı Biləsuvar rayonu ərazisində, eyni adlı şəhərdən 18 km aralıda yerləşir və onun ümümi həcmi 12,5 mln. m^3-dir. Tikildikdən sonra ilk 14 il ərzində su anbarının ümümi həcminin təxminən 6,5mln.m^3-i lillənmişdir. Layihəyə görə su anbarının ölü həcmi 1 mln. m^3, istifadə müddəti isə 50 il nəzərdə tutulmuşdur. Lakin su anbarında lillənmə sürətlə getmiş və su anbarının faydalı həcmi kəskin azalaraq istifadə üçün yararsız vəziyyətə düşmüşdür [2].

Keçən əsrin 70-ci illərin axırlarında həmin su anbarının rekonstruksiyası planlaşdırılmışdır. Belə ki, bu layihədə anbarın bəndinin hündürlüyünü 3,25 m artıraraq, onun ümumi həcmini 20 mln. m^3-ə, faydalı həcmi 11 mln. m^3-ə, ölü həcmi isə 2,5 mln.m^3-ə çatdırmaq nəzərdə tutulurdu. Ümumiyyətlə ərazinin topoqrafik xüsusiyyətləri ilə əlaqədar su anbarının həcmini bundan çox artırmaq mümkün deyildir. Lakin nəzərdə tutulan bu layihə yerinə yetirilməmişdir [2].

Hal-hazırda Bolqarçayda suyun kəskin azalması və ifrat dərəcədə lillənməsi səbəbindən Bolqarçay su anbarı da öz funksiyasını demək olar ki itirmişdir. Qeyd olunan su anbarının normal fəaliyyətinin bərpası və idarə olunması məqsədilə Bolqarçay üzərində hidroloji müşahidə məntəqəsinin təşkili, su anbarının dağılmış hissələrinin bərpası, transsərhəd çaylarının suyundan istifadə zamanı beynəlxalq konvensiyalara düzgün əməl edilməsi məqsədilə qonşu dövlətlə əlaqənin qurulması və su anbarının lildən təmizlənməsi tövsiyyə olunur.

Qlobal iqlim dəyişmələrinin regional təzahürləri və antropogen amillərin təsiri Astaraçaydan da yan keçməmişdir. Belə ki, son 15-20 il ərzində Astaraçayın suyu həm keyfiyyəti, həm də orta illik axım kəmiyyəti hiss olunacaq dərəcədə aşağı düşmüşdür. Astaraçayın aşağı axınında Alaşa kəndi yaxınlığında Astara İstisuyu adlı istirahət zonası fəaliyyət göstərir. Bütün məişət tullantıları çaya axıdılır, çayda maşınlar yuyulur və s. Digər tərəfdən İstisu bulaqları suyunun minerallaşması dərəcəsi və tempraturu yüksək olduğundan bu sular İstisuçayın sularına qarışaraq nəinki içmək üçün, hətta çayın suyundan əkin sahələrini suvarmaq üçün də istifadə etmək olmur.

Çay hövzələrinin su ehtiyatlarını inteqrasiyalı idarə etmək üçün Qlobal Su Əməkdaşlığı proqramı çərçivəsində təkliflər verilmişdir. Əvvəllər də iri çay hövzələrinin su ehtiyatlarından səmərəli istifadə məqsədilə kompleks sxemlər hazırlanırdı. Keçmiş SSRİ-də Kür çayı hövzəsi üçün belə bir Kompleks Sxem işlənmiş, lakin son nəticədə təsdiq edilməmişdir.

Hər bir çay hövzəsinin faktiki su ehtiyatları, onlardan istifadə, ekosistemlərin vəziyyəti və s. baxımından fərqlidir. Buna görə də çay hövzəsinin idarə olunma planının əsas məqsədləri müxtəlif ola bilər.

-Çay hövzəsinin su ehtiyatlarından səmərəli istifadə;

-Hövzə ekosistemlərinin deqradasiyasının azaldılması və s.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nın 1.1-ci bəndinə əsasən su ehtiyatlarının qiymətləndirilməsi, inventarlaşdırılması, modelləşdirilməsi və bununla bağlı məlumatların "Elektron su təsərrüfatı" informasiya sisteminə inteqrasiyası üçün tədbirlərin həyata keçirilməsi məqsədi ilə ölkəmizdə işçi qrupu yaradılmış və onların qarşısında konkret vəzifələr qoyulmuşdur.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün yerinə yetirilməsi vacib sayılan işlər müəyyən olunmalı və onları həyata keçirmək üçün lazım olan bütün ehtiyaclar təyin olunmalıdır. Bu ehtiyaclar aşağıda göstərildiyi kimi üç qrupa bölünə bilər:

1)Qanunverici aktlar;

2)Maddi vəsait;

3)Ciddi maarifləndirici fəaliyyət.

Eyni zamanda transsərhəd çayların hövzələrində ölkələrin öhdəlikləri beynəlxalq sənədlərlə təsdiq olunmalıdır. Mövcüd suvarma kanallarında su itkilərini azaltmaq üçün onlar rekonstruksiya olunmalıdır. Çayları çirkab sulardan və bərk tullantılardan, o cümlədən, məişət tullantılarından mühafizə etmək üçün həm çoxlu maddi vəsait, həm də əhali ilə ciddi sürətdə maarifləndirici işlərin görülməsi tələb olunur.

Ədəbiyyat

1. Ağayev, Z.B. (2001) Lənkəran təbii vilayəti çaylarının su ehtiyatları. LDU-nun xəbərləri. Lənkəran. səh 110-113.
2. İmanov, F.Ə. Ağayev, Z.B., (2012) Verdiyev R.H., Ş.Hümbətova. Şərqi Azərbaycan çaylarının su ehtiyatları. Monoqrafiya. Bakı, MBM. 184 s.
3. İmanov, F.Ə. Ələkbərov, A.B. (2017) Azərbaycanın su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi. Bakı, Mütərcim. 352 s.
4. Məmmədov, M.Ə. (2002) Azərbaycanın hidroqrafiyası. Bakı, "Nafta-Press". 266 s.
5. Рустамов, С.Г. Кащгай, Р.М. (1989) Водные ресурсы Азербайджанской ССР. Баку, Элм.188 с.

6. Рустамов, С.Г. Кащгай, Р.М. (1978) Водный баланс Азербайджана. Баку, Элм.110с.
7. Директива Европейского Парламента и Совета Европейского Союза. №2000 ЕС от 23 октября 2000 года.101с.
8. Халилов, Щ.Б. (2003) Водохранилища Азербайджана и их геологические проблемы. Баку, БГУ. 310с.

TRANSBOUNDARY RIVERS OF TALYSH MOUNTAINS AND THEIR MODERN PROBLEMS

Ziyafat Agayev
Lankaran State University, Lankaran, Azerbaijan

The article analyzes the asymptomatic influences of the Bolgarchay and Astarachay rivers, which are the transboundary rivers of the Talish Mountains in the south-eastern part of the Republic of Azerbaijan, and the unequal distribution of their seasons. investigated and solutions are shown.

Key words: flow quantity, flow regime, water consumption, hydrological observations, transboundary rivers, water problem

ТРАНСГРАНИЧНЫЕ РЕКИ ТАЛЫШСКИХ ГОР И ИХ СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ

Зияфат Агаев
Лянкяранский государственный университет, Лянкярань, Азербайджан

В статье анализируется сток трансграничных рек Болгарчай и Астарачай, расположенных в юго-восточной части Азербайджанской Республики, а также неравномерность распределения сезонов, исследованы и показаны решения.

Ключевые слова: количество стока, режим стока, водопотребление, гидрологические наблюдения, трансграничные реки, водная проблема

Daxil oldu: 1.05.2021; Çapa qəbul edildi: 15.06.2021; Çap edildi: 17.08.2021

NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN SORBUS L. CİNSİNƏ DAXİL OLAN NÖVLƏRİN TƏHLİLİ VƏ BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Aynurə Qulamova

Naxçıvan Universiteti, Naxçıvan, Azərbaycan
e-mail: aynurequlamova82@gmail.com

Xülasə. Sorbus L. cinsinə malik olan növlər dekorativ görünüşə malik olan çiçəkləri ilə qədim dövrdən bəri bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir, lakin bu dövrdən araşdırılmasına baxmayaraq Sorbus L. sistematikası hələ kifayət qədər inkişaf etdirilməmişdir. Maloideae yarımfəsiləsinə aid olan Sorbus L. cinsinin sistematikası mürəkkəbdir. Bunun üçün də cins daxilində taksonomik tərkibin öyrənilməsi üçün sistematik və filogenetik əlaqələrin geniş araşdırılması lazımdır. Bu araşdırmalar Sorbus L. cinsinə daxil olan növlərin toplanılması, onların növ tərkibinin müəyyənləşdirilməsi, məhvolma təhlükəsində olan növlərinin müəyyən edilməsi, botaniki-coğrafi xarakteristikasının müəyyənləşdirilməsi və təbii ehtiyatının hesablanması istiqamətlərində aparılmalıdır. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası florasında Sorbus L. cinisinin 17 növü yayılmışdır. Məqalədə Naxçıvan Muxtar Respublikasında florasında yayılan Sorbus L. cinsinə daxil olan növlərin taksonomik təhlili, botaniki təsviri, biomorfoloji xüsusiyyətləri haqqında məlumat verilmişdir.

Açar sözlər: Sorbus L., növ tərkibi, forma müxtəlifliyi, botaniki təsviri, biomorfoloji xüsusiyyətləri

Giriş

Əvvəlki məqalələrdə qeyd edildiyi kimi, Quşarmudu Sorbus *L.* cinsi Rosaceae fəsiləsinə aid olan yüksək dağlıq qurşaqlarda yetişən ağac və kol bitkisidir. Sorbus *L* cinsi Avropada, Qərbi Asiyada, Qafqazda və Şimal yarımkürəsi zonasında yayılmışdır. Ədəbiyyat məlumatlarına əsasən, son dövrlərə qədər aparılan araşdırmalar nəticəsində Azərbaycanda Sorbus *L.* cinsinin 21 növü, Naxçıvan Muxtar Respublikası ərazisində isə 17 növünün yayıldığı qeyd edilmişdir [8, s. 16-21].

Quşarmudu (Sorbus *L.)* cinsinə aid olan növlərin yarpaqları sadə və mürəkkəb olub, çiçək qrupu isə qalxanşəkilli çətir formasındadır. Sərbəst sütuncuğa malikdirlər. Erkəkciklərin sayı növ müxtəlifliyinə əsasən 15-25 arasında dəyişir. May-iyun ayında çiçəkləyir, sentyabr-oktyabr ayında isə meyvə verirlər. Meyvələrinin rəngi isə ağ, sarı, qırmızı və qara rəngdə olur. Meyvələrin yetişməsi uzun çəkir və qış aylarına qədər qala bilər [1, s. 42-45].

Müəlliflər tərəfindən aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası florasında Sorbus L. cinsinə aid olan 17 növ (Sorbus aucuparia L., S. boisseri Schneid., S. graeca (Spach) Lood. Ex Schauer (S. baldacii Degen et

Fritsch ex Schneid), S. luristanica (Bornm.) Schönbeck-Temesy, S. persica Hedl., S. roopiana Bordz., S. subfusca (Ledeb.) Boiss., S. takhtajanii Gabr., S. turcica Zinserl. (S.umbellata (Desf) Fritsch), S. albovii Zinserl., S. armeniaca Hedl, S. buschiana Zinserl., S. caucasica Zinserl., S. fedorovii Zaikonn., S. kusnetzovii Zinserl., S. migarica Zinserl., S. tamamschjanae Gabr.) yayılmışdır [2, s. 94-97; 3, s. 83-90] .

***Sorbus aucuparia L.*-Adi quşarmudu.** Sorbus L. cinsinə aid olan bir ağac növüdür. Hündürlüyü 5-15 m, bəzən də 4-20 m olur. Cavan gövdəsi boz rəngli olub, düz və hamardır. Yaşlı növlərinin gövdə qabığı çatlayır və rəngi isə get-gedə tündləşir. Təpə tumurcuqlarının uzunluğu 8-15 sm olub, uzunsov-konusvari şəklindədir. Pulcuğunun rəngi isə qara-qonurdur. Üzəri tüklüdür, qaidəsindən yarpaq ayaları ilə əhatə olunmuşdur. Yan tumurcuqları yarpaq qoltuğunda yerləşərək nisbətən kiçik ölçülü, az tüklüdür. Qırmızımtıl-qəhvəyi rəngdə olan yarpaq sapları 1.5-6.7 sm uzunluğundadır. Yarpaq sapının üzəri seyrək tüklü və ya tamamilə çılpaqdır. Yarpaqları lələkşəkilli mürəkkəb yarpaq olub, 11-17 ədəd yarpaqcıqdan ibarətdir. Yarpaqcıqlar sivri uclu olub, dişli kənara malikdir. Yarpaqcıqların üst hissəsi tüklü olub, tünd yaşıl rəngli, alt hissəsi isə açıq yaşıl rəngdədir. Yarpaqlarının uzunluğu 10-20 sm-ə qədər çatır. Ağ rəngli çiçəklərinin diametri 1 sm-dir. Ləçəklərinin üzəri sıx tüklü olub, 5 mm diametrə malikdir. 5 kasacıq yarpağından ibarət kasacığı tüklü olur, sonra çılpaqlaşır. Dişicik sütuncuğu 2-5 sm olub, qaidəsi tüklüdür. Erkəkciklərinin sayı 20 ədəddir. Qalxan çiçək qrupuna malikdir. Sorbus aucuparia L. may ayında çiçəkləməyə başlayır və 10-15 gün davam edir. Meyvələri qırmızı-narıncı rəngli olub, şarşəkilli formadadır. Meyvəsi giləmeyvədir, avqust-sentyabr aylarında yetişir. [9, s. 553] Coğrafi arealı: Təbii olaraq Avropada, Qafqazda və Sibirdə geniş yayılmışdır. Naxçıvan Muxtar Respublikasında isə Şahbuz rayonunun Biçənək və Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı meşəliklərdə yayılmışdır.

***S.Boisseri Schneid.*-Buasse quşarmudu**. Buasse quşarmudu Qafqaz quşarmuduna oxşayır. Onları fərqləndirmək bir qədər çətindir. Yalnız tumurcuqlarının iyvari olması ilə ondan fərqlənir. İyvari tumurcuqların üzəri vəzili tükcüklərlə örtülüdür. Yarpağı 11-15 ədəd yarpaqcıqdan ibarətdir. Yarpaqcıqları enli olub, ellepsvarı, lansetvaridir. Eni 2 sm-dən artıqdır. Meyvəsi qırmızı və ya narıncı qırmızı olub, dəyirmi yumurtavaridir, diametri 8-11 mm-dir. Çiçək açması may-iyul ayında baş verir. Sentyabr ayında isə meyvəsi yetişir [7, s. 32].

Coğrafi arealı: Dünyada Qafqazda və Kiçik Asiyada geniş yayılmışdır. Naxçıvan Muxtar Respublikası florasında Şahbuz rayonunun Biçənək və Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı meşəliklərdə yayılmışdır.

***S. graeca (Spach) Lood. Ex Schauer*-Yunan quşarmudu.** Hündürlüyü 3-4 m bəzən də 7 m-ə qədər olan ağacdır. Çəmənlərdə, qayaların ətrafında və meşələrdə çox halda qrupla, bəzən də tək-tək rast gəlinir. Cavan zoğlarının rəngi qonur, yaşlı gövdə qabığının rəngi isə bozumtuldur. Yarpaqları sadə, enli, tərsinə ellipsvari olub, üst hissəsi hamar, tünd yaşıldır, alt hissəsi isə bozumtul rəngli və tükcüklüdür. Yarpaqların kənarı ikiqat mişardişlidir. Aprelin axırından oktyabra qədər vegetasiyası baş verir. İyunda ağ rəngli çiçək açır. Kürə formalı meyvələri qırmızı rəngdə olub, avqustda yetişir. Meyvəsinin üzəri tükcüklükdür, tam yetişəndə isə göyərir. Toxum və qələmlə çoxaldılır. İşıqsevən mezofitdir. Qışa davamlıdır. Dekorativ bitki kimi bağçılıqda, yaşıllaşdırmada istifadəsi əlverişlidir. Gövdəsi bərk və elastikidir. Yarpaqlarından müxtəlif rəngli boyaq istehsal edilir. Dekorativ bitki olmaqla yanaşı, həm də bal bitkisidir [4, s. 58-69].

Coğrafi arealı: Təbii halda Cənubi Avropada, Krımda, Qafqazda, Kiçik Asiyada bitir. Naxçıvan Muxtar Respublikası ərazisində isə Şahbuz rayonunun Biçənək meşəsi və Batabat gölünün ətrafı, Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı Tillək, Aşağı və yuxarı Cəlil meşələri, Nəsirvaz kəndi ilə Qaranquş yaylağı arasındakı meşə və kolluqlarda yayılmışdır.

***S. luristanica (Bornm.) Schönbeck-Temesy*-Luristan quşarmudu.** Hündürlüyü 5-6 m, bəzən də 10 m-ə çatan ağac və ya kol bitkisidir. Gövdə qabığının rəngi qırmızımtıl-sarıdır. Qırmızımtıl-qəhvəyi rəngli cavan zoğları çılpaqdır. Tumurcuqları 3-6 mm boyunda olub, üzəri sarımtıl-qəhvəyi tüklü pulcuqlarla örtülüdür. Qısa sivri uca malik olan, ensiz tərs yumurtavari yarpaqları var. Yarpaqlarının üzəri açıq yaşıl, alt hissəsi isə məxmər və ya keçətüklü olub, boz rəngə çalır. Az tüklü saplağa malikdir. Çiçəkləri orta böyüklükdə olub, üzərində 25-40 ədəd çiçək daşıyan səbət çiçək qrupuna malikdir. Çiçəkləri sarımtıl və ya ağ rənglidir. Meyvələri iri və oval şəklində olub, 20-35 mm diametrə malikdir. Meyvələrinin rəngi isə qırmızımtıl sarı və ya qırmızıdır. May-iyun ayında çiçəkləyir, sentyabr ayında isə meyvəsi yetişir. Generativ yolla çoxalır.

Coğrafi arealı: Ümumi halda Qafqazın cənubunda, İran və Türkiyədə yayılmışdır. Naxçıvan Muxtar Respublikasında isə Şahbuz rayonunun Biçənək meşəsi və Batabat gölünün ətrafında yayılmışdır.

***S.persica Hedl.*-İran quşarmudu.** Naxçıvan Muxtar Respublikasının dağ qurşaqlarında dəniz səviyyəsindən 2100-2500 m. yüksəklikdə rast gələnən kiçik ağac növüdür. Hündürlüyü təqribən 3-7 m. olur, bəzən də 10 m-ə qədər çatır. Budaqları açıq-qonur rənglidir. Ellepsvari və ya uzunsov formada olan yarpaqlarının kənarları mişardişlidir. Yarpaqlarının uzunluğu 7 sm, eni isə 6 sm-ə qədər olur. Çiçəklənmə dövrü may-iyun aylarını əhatə edir və çoxçiçəkli salxım çiçək qrupuna malikdir. Ləçəkləri ağdır. Meyvələrinin rəngi adətən narıncı-qırmızı rəngdə olur. Meyvəsi oval formadadır və sentyabr-oktyabr aylarında yetişir. Meyvəsi yetişdikcə rəngini dəyişərək ağımtıl rəng alır. Meyvəsi soyuğadavamlı olub bəzən şaxtalara qədər ağaclarda qalır. Çoxaldılması toxumla baş verir. Bəzən də qələmdən istifadə edirlər. Vegetasiya dövrü uzun çəkir, əksərən 164 gün olur [6, s. 254]. Coğrafi arealı: Ümumi halda Rusiya, Türkiyə, İran və Azərbaycanda yayılmışdır. Naxçıvan Muxtar Respublikasında isə Şahbuz rayonunun Biçənək, Kükü kəndlərinin ətraf meşəliklərində və Culfa rayonunun Xəzinədərə ərazisində yayılmışdır.

***S. roopiana Bordz.*-Roop quşarmudu.** Piramidal təpəli 4-10 metrə qədər çatan kiçik ağac və ya koldur. Cavan ağacların gövdə qabığı qırmızı rəngdə parlaq və düzdür. Təpə tumurcuqları yan tumurcuqlardan daha böyük olub 6-9 mm boyundadır. Yarpaq sapının uzunluğu 1.1-3.1 sm arasında sarımtıl yaşıl rəngdə olub, üzəri pambıq kimi tüklərlə örtülüdür. Yarpağın altı 1-3 (4) sərbəst yarpaqcıqdan ibarətdir, üst tərəfi isə orta damara qədər dərin toplu və ya dərin dişlidir. Yarpağın altı isə yaşılımtıl olub, boz tüklərlə örtülüdür. Sonra bu tüklər tökülür. Yarpağın üzəri tünd yaşıl və çılpaqdır. Dikduran yalançı çətir formasındakı çiçək qrupu 9 sm boyunda, 7-10 sm enindədir. Çirkli ağ rəngdə olan çiçəklər 12-14 mm böyüklüyündə olub, tac yarpaqlarının dib qismində uzun tüklər vardır. Yetişdiyində tünd qırmızı rəng alan meyvələri kürəvari-elleps formasındadır. 10 mm diametrində olan bu meyvələrin içərisində 3-5 ədəd toxum olur.

Coğrafi arealı: Türkiyədə daha çox yayılmışdır. Muxtar respublikamızda Şahbuz rayonunun Biçənək meşəsində yayılmışdır.

***S. subfusca (Ledeb.) Boiss.*-Qonur quşarmudu.** Dəniz səviyyəsindən 2000 m-ə qədər yüksəklikdə yuxarı və orta dağ qurşaqlarında fıstıq meşələrində, qayalıq yerlərdə və meşə kənarlarında təsadüf edilir. Azərbaycanda çox da geniş yayılmamışdır. Təbii arealında hündürlüyü 8-10 m-ə çatan ağac və ya koldur. Yarpaqları iri olub, 7-11 sm uzunluğundadır. Kənarları ikiqat, bəzən də dərin dişlidir. Ucu sivriləşmiş, qaidəyə doğru isə dairəvi və ya pazşəкilli olub tərsinə yumurtavarı və ya ellipsvarıdır. Yarpağın üzəri tünd yaşıl rəngli, alt hissəsi isə sarımtıl yaşıl rəngdə olub, ağ tüklərlə örtülüdür. Yarpaq sapı 0.5-2.0 sm uzunluğundadır, qaidəyə yaxın hissəsi qırmızı-qonurdur. Kasacığı keçətükcüklü və küt dişlidir. Çiçəkləri ağ enli ellipsvarıdır. Meyvəsi kürəvari olub, əvvəl tünd qırmızı, sonralar isə tünd-göyümtül rəngə çevrilir, üzəri xallarla örtülüdür. Təbiətdə generativ yolla çoxalır.

Coğrafi arealı: Ümumi halda Qafqaz və Türkiyədə yayılmışdır. Muxtar respublikamızda isə Şahbuz rayonunun Kükü kəndinin ətrafında yayılmışdır.

S. takhtajanii Gabr.-Taxtacan quşarmudu. 3-6 m boylarında olub, yüksək dağlarda yayılan meşə kollarıdır. Gövdə qabığının rəngi qırmızımtıl bozdur. Tumurcuqları 3-6 mm ölçüsündə olub, üzəri isə 3-4 ədəd pullarla örtülmüşdür. Rombvari-elleps şəkilli yarpaqları 4.5-7 sm boyundadır. Yarpağın üzəri tünd yaşıl və çılpaq, alt hissəsi isə ağ rəngli tüklərlə örtülüdür. Yarpaq sapının uzunluğu 0.7-2 sm-dir. Çiçək qrupu yalançı çətir formasında olub, 25-30 çiçəkdən ibarətdir. Meyvələrinin rəngi narıncı-sarı və ya sarımtıl-qırmızıdır. Kürəşəkilli meyvələri 2-4 toxumludur [5, s. 70].

Coğrafi arealı: Ümumi halda Azərbaycan və Türkiyədə yayılmışdır. Naxçıvan Muxtar Respublikası ərazisində isə Şahbuz rayonunun Biçənək meşəsi və Sarvartı dağının ətəklərində yayılmışdır.

S. turcica Zinserl. (S.umbellata (Desf) Fritsch)-Türkiyə quşarmudu. Ortaboylu ağac və ya kol bitkisidir. Tumurcuqları az keçə tüklüdür. Yarpaqların qaidəyə yaxın hissəsi dəyirmiləşmiş və ya enli pazvaridir və uc hissəsi kütdür. Yarpağının eni 4-6 sm, uzunluğu isə 5-7 sm-dir. Yan damarları 6-8 cütdür. Üstdən çılpaq, alt hissəsi isə sıx keçətüklüdür. Yarpaq kənarındakı dişlərin sayı 10-20 ədəddir. 5-1.5 sm uzunluğunda olan yarpaq sapı keçətüklüdür.

Sivri uclu, yumurta şəklində olan tumurcuqları 3-4 ədəd pulcuqlarla örtülmüş, az yapışqanlıdır. Çiçək saplağı, kasacığı və yetişmiş meyvələri ağ keçətüklüdür. Kasacığın dişləri üçbucaq şəklindədir. Meyvələri kürəvi tünd qırmızı rəngli olub, 3-4 toxuma malikdir. May ayında çiçək açır, avqust-sentyabr ayında meyvə verir.

Coğrafi arealı: Ümumi halda Krım, Qafqazın şimalında, Türkiyədə yayılmışdır. Muxtar Respublikamızda isə Şahbuz rayonunun Biçənək, Ayrınc, Kükü, Ordubad rayonunun Nürgüt, Urmus, Məzrə kəndlərinin və Sədərək rayonunun ərazilərində yayılmışdır.

S. albovii Zinserl.-Albov quşarmudu. Dəniz səviyyəsindən 1800-2000 m yüksəkliklərdə subalp zonada fıstıq və şam meşələri arasında yayılan ağac və ya kol bitkisidir. Az tükcüklü və ya çılpaq tumurcuqları var. Tərs yumurtavari və ya ellipsvari yarpaqları qaidədən az daralmış və ya dairəvidir. Adətən sivri uclu olub, 7-10 sm uzunluqda, 4-7 sm enindədir. 8-11 cüt yan damarları var. Yarpağın üst tərəfi çılpaq (ilk vaxtlar damarlar boyunca az tükcüklü), alt tərəfi isə yaşıl və zəif tükcüklüdür. Kənarları dişciklidir, yuxarı tərəfi adətən aydın olmayan ikiqat dişciklidir, kəskin iti dişciklər yarpağın ayəsinə kimi çatır. Kasacığı keçətükcüklü olub, dişcikləri üçbucaq şəklində sivridir. Ləçəkləri yumurtavaridir. Meyvələri dəyirmi və ya oval şəkilli olub qırmızıdır, tam yetişəndə göy rəng alır. May-iyun aylarında çiçək açır, avqust- sentyabrda isə meyvəsi yetişir. Coğrafi arealı: Təbii halda Qafqazda geniş yayılmışdır. Naxçıvan Muxtar Respublikası ərazisində Şahbuz rayonunun Biçənək və Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı meşəliklərdə yayılmışdır.

***S. armeniaca Hedl.*-Erməni quşarmudu.** Meşənin yuxarı sərhədi boyunca dəniz səviyyəsindən 1500-2300 m yüksəklikdəki qayalıq yerlərdə bitən kol və ya alçaqboylu ağacdır. Yumurtavarı, ellepsvarı və ya uzunsov ellipsvari yarpaqları qaidəyə yaxın hissə dərinləşmişdir. Yarpağın ucu sivri və ya az hallarda kütdür, 6-8 sm uzunluqda, 3,5-5 sm enində olub, kənarı çox dərin olmayan 5-7 dilimlidir (aşağı dilimlər yarpaq ayası eninin yarısının 1/2-1/3 hissəsinə qədər çatır). Dişlərin sayı 30-36-ya çatır. Üstdən tünd yaşıl və çılpaq, altdan bozumtul və ya ağ rəngli sıx keçətükcüklüdür. Yarpağın üzərində 9-10 cüt yan damarları vardır və onlar yarpağın altında aydın seçilir. Çoxçiçəkli çiçək qrupuna malikdir. Kasacığın kənarları sivri üçbucaq şəklindədir. Ləçəkləri ağ rənglidir, forması isə yumurtavarıdır. 1,0-1,2 sm uzunluğunda, 0,8-1,1 sm enində olan meyvələri oval və ya dairəvi formasındadır. Yanlardan azacıq basılmışdır, tək-tək və ya 3-7 ədədi birlikdə qalxanlarda toplanmışdır. Yetişmiş meyvələri qırmızı olub, quruyanda göyərir. May-iyun aylarında çiçək açır, sentyabr- oktyabrda meyvələri yetişir.

Coğrafi arealı: Təbii halda Qafqazda yayılmışdır. Muxtar respublikamızda isə Şahbuz rayonunun Biçənək və Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı meşəliklərdə rast gəlinir.

***S. buschiana Zinserl.*-Buş quşarmudu.** Dəniz səviyyəsindən 1850-2200 m yüksəklikdə seyrək meşəliklərdə bitən hündürlüyü 4-6 m-ə çatan alçaqboylu ağac və ya koldur. Yarpaqlarının uzunluğu 10-11 sm-dir. Yarpaqları ikili olub, bar verən zoğlarda enli və ya yumurtavarı-ellepsvarı, meyvəsiz zoğlarda isə neştərvaridir. Yarpaqdakı yan damarlarının sayı 10-11 cütdür, kənarları ikiqat dişlidir. Alt səthi boz yaşılımtıl keçəvari tükcüklüdür. Qaidəsinə getdikcə pazvari formasını alır.

Coğrafi arealı: Təbii halda Qafqazda geniş yayılmışdır. Muxtar respublikamızın florasında isə Şahbuz rayonunun Biçənək və Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı meşəliklərdə yayılmışdır.

S. caucasica Zinserl.-Qafqaz quşarmudu. Hündürlüyü 4-7 m-ə qədər çatan, geniş təpəli alçaqboylu ağac və ya kol bitkisidir. Gövdə qabığı qırmızımtıl tünd boz rəngli, hamar üzlüdür. Yarpaqları tərs yumurtavari, dəyirmi, enli ellepsvari və ya bəzi hallarda uzunsov ellepsvari olan yarpaqları qaidəyə yaxın hissədə enli pazşəkilli formasını alır. Kütuclu və ya və ya sivriuclu olub, (8) 10-12 (15) sm uzunluqda və 6-11 sm enindədir. Kənarı çox da dərin olmayan 5-7 dilimlidir (dilimlər yarpağın eninin 1 (3-1) 4 hissəsinə qədər çatır). Sivri dişlərinin sayı 30-35-ə çatır. Yarpaqların üzəri tünd yaşıl rəngli olub çılpaqdır, altdan isə sıx boz və ya ağımtıl keçətükcüklüdür. Yarpaqda 7-9 cüt yan damarlar var. Digər növlərdə olduğu kimi yarpağın alt səthində damarlar aydın seçilir və keçətükcüklüdür. Yarpaq sapının uzunluğu 1.2-2.2 sm arasındadır. Çoxçiçəkli çiçək qrupuna malik olub, 40-50 (-70) çiçək daşıyır. Çiçək saplağı keçətükcüklüdür. Ləçəkləri ağ və tərs yumurtavaridir. Meyvələri uzunluğu 1,0-1,4 sm, eni isə 0,6-1,1 sm-dir. Forması ovalşəkilli və ya azca uzunsovdur, 7- 12 (20) ədədi birlikdə qalxanlarda toplanmışdır. Yetişmiş meyvələri qırmızı olub, çılpaqdır, quruyanda göyərir. 2-3 ədəd qırmızımtıl qəhvəyi rəngli toxumları 5-6 mm uzunluqdadır. May-iyun aylarında çiçək açır, avqust-sentyabrda isə meyvəsi yetişir.

Coğrafi arealı: Təbii halda Şərqi və Qərbi Qafqazda geniş yayılmışdır. Naxçıvan Muxtar Respublikası florasında isə Şahbuz rayonunun Biçənək kəndi ətrafındakı meşəliklərdə rast gəlinir.

S.fedorovii Zaikonn. **- Fyodorov quşarmudu.** Dəniz səviyyəsindən 1600-2000 m yüksəklikdə bitən kol bitkisidir. Hündürlüyü 2 m-dir. Yarpaqlarının uzunluğu 7-10 sm-dir. Kənarları ikiqat, bəzən də dərin dişcikli olub, tərsyumurtavari və ya ellepsvaridir. Sivriləşmiş uca malik olub, qaidəyə doğru getdikcə pazşəkilli daralmışdır. Yarpağın alt üzündə damarlar aydın seçilir. Yarpaq saplağının rəngi qırmızı-qonurdur. Qalxan çiçək qrupuna malikdir və çiçək saplaqları çılpaqdır. Kasacığı кeçətükcüklü, qabarcıqlı və кüt dişlidir. Ağ rəngli ləçəkləri enli ellepsvari olub, kasacıqdan demək olar ki, 2 dəfə uzundur. Meyvələri kürəvari olub, əvvəl qırmızı, sonralar isə tünd-göyümtül rəngdə olur. İyun ayında çiçək açır, sentyabr - oktyabrda isə meyvəsi yetişir.

Coğrafi arealı: Ümumi halda Qafqazda, əsasən də Cənubi Qafqazda geniş yayılmışdır. Muxtar Respublikamızda isə Şərur rayonu Axura kəndi ətrafi Hadı Kayıb, Quzuyatan ərazilərindəki meşə kolluqlarda yayılmışdır.

S. kusnetzovii Zinserl. - Kuznetsov quşarmudu. Dəniz səviyyəsindən 1200-2400 m yüksəklikdə orta və yuxarı dağ zonalarında, palıd meşələrində, açıq qayalı yamaclarda bitən hündürlüyü 5-6 m-ə çatan kol və ya alçaqboylu koldur. Cavan zoğları qırmızımtıl-qəhvəyi rəngli olub, üzəri çılpaqdır. Tumurcuqları keçəvari tükcüklü olub, üzəri 3-4 ədəd parlaq pulcuqlarla örtülüdür. Yarpaqları enli, tərs ellepsvari və ya ellepsvaridir. Yarpağın qaidə hissəsi pazvari ensizləşir. 5-8 sm uzunluqda və 4-6,5 sm enində olan yarpağın ucu sivri və ya nadir hallarda küt olur. Üst tərəfi çılpaq, yaşıl, alt tərəfdən isə bozumtul sıx keçətükcüklüdür. Yarpaqdakı yan damarların sayı 7-10 cütdür və kənarı ikiqat dişlidir. Yarpaq sapı 1.9-2.1 sm uzunluğundadır və üzəri ağ tükcüklərlə örtülüdür. Ləçəkləri ağ, dəyirmiləşmişdir. 1,3 sm uzunluğunda, 1,1 sm enində olan kürəvari meyvələri qalxanlarda toplanmışdır.

Coğrafi arealı: Ümumi halda Qafqaz, Livan və Türkiyədə rast gəlinir. Muxtar Respublikamızda isə Şahbuz rayonunun Biçənək və Ordubad rayonunun Nürgüt kəndi ətrafındakı meşəliklərdə yayılmışdır.

